# Türk Dövlətləri Təşkilatı dünyaya sülh və ədalət vəd edir



***Türk dünyası yeni təşkilatla yeni hədəfə doğru inamla addımlayır. 12 noyabr 2021-ci il Türk dünyasının tarixində önəmli bir günə çevrildi. Türk Dövlətlərinin Əlaqələndirmə Şurası – Türk Konseyi adlanan və türk ölkələrini bir çətir altında birləşdirməyi hədəfləyən təşkilatda ciddi, bizi sevindirən, qürurlandıran dəyişikliklər baş verdi. Bu qurum yekdil qərarla Türk Dövlətləri Təşkilatı (TDT) adlandırıldı, Türkmənistan dövləti prezident səviyyəsində toplantıya qatıldı, TDT-nin 2040-cı il yol xəritəsi müəyyənləşdirildi. İstanbulda qarşısında bütün türk ölkələrinin bayrağının qürurula dalğalandığı yeni ofisin açılışı oldu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, Qazaxıstan Respublikasının Prezidenti Qasım-Comart Tokayev, Qırğız Respublikasının Prezidenti Sadır Japarov, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, Türkmənistan Respublikasının Prezidenti Qurbanqulu Berdiməhəmmədov, Macarıstanın Baş naziri Viktor Orban və Türk Dövlətlərinin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyevin iştirakı ilə keçirilən toplantıda, açılış və görüşlərdə önəmli mesajlar verildi, mühüm qərarlara imza atıldı.***

Türk dünyasının bütövlüyü üçün, türk dövlətlərinin bir arada olması üçün, türk xalqlarının birliyi üçün nə qədər qanlar töküldü, nə qədər canlar verildi. Amma bu çalışmalar hədər getmədi. Düşmənlərimizin, rəqiblərimizin xəyal adlandırdıqları Turan – türk birliyi ideyası gerçək oldu. Türk dövlət başçılarının qətiyyəti sayəsində Türk Dövlətləri Təşkilatı quruldu. Bununla da Türk dünyası ortaq keçmişdən ortaq gələcəyə doğru yol aldı. TDT adı bizi ancaq "türkdilli" ifadəsindən xilas etmədi, eyni zamanda, dövlətlərin, türk xalqlarının birliyi üçün yeni və daha möhkəm bir zəmin hazırlamış oldu. Türk dövlətlərinin arasında zaman-zaman yaranan və yaradılan nifaqlar nəticə vermədi. Noyabrın 12-də birlik olmaq üçün imzalar atıldı.

Sovet imperiyası dağılandan sonra türk dövlət və toplumlarının dostluq, qardaşlıq, işbirliyi qurultayları keçirilirdi. Daha sonra bu çalışmalar Türk Konseyini yaratdı. Orada görülən işlər isə TDT-ni ortaya çıxardı. Azərbaycan və Türkiyə arasında son illərdə genişlənən əlaqələr, Türkiyənin Orta Asiya türk ölkələri ilə həyata keçirdiyi doğru siyasət, artan türk gücünə yaranan marağın cəlb etdiyi Macarıstan TDT-nin ortaya çıxmasını şərtləndirdi. Türk dövlətləri buna qədər də BMT, MDB, İƏT və s. beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıqlar edirdilər. Lakin məhz ortaq tarix, dil, mədəniyyət və s. üzərində qurulan bir təşkilatın olması yeni imkanlar açır. Türk dövlətləri geniş təbii sərvətlərə, böyük coğrafiyaya, iqtisadi imkanlara, siyasi, hərbi gücə malikdir. Mədəniyyət, media, parlament, gənclər, təhsil, elm və s. istiqamətlərdə təşkilatlara, çalışmalara malik olan türk dövlətlərinin bundan sonra siyasi münasibətlərini daha da sıxlaşdırması, xüsusən iqtisadi, hərbi sahədə əməkdaşlıqlar qurması lazımdır. İqtisadi münasibətləri genişləndirmək, vizasız gediş-gəliş, ortaq bazar yaratmaq, gömrük münasibətlərini tənzimləmək, vahid pul, vahid bank və s. kimi formatları tətbiq etmək vacib şərtdir. Münasibətlərin zirvəsi isə hərbi əməkdaşlığın qurulması, vahid ordu, müxtəlif hərbi birliklər yaratmaq ola bilər. Bir gün bunun da gerçək olacağı artıq hər kəsə bəllidir.

Mədəniyyət, təhsil sahəsində işləri genişləndirmək üçün ortaq dil, ortaq əlifba, ortaq tarix və ədəbiyyat dərsliklərinin hazırlanması, istifadəsi ən önəmli məqamdır. Vaxtilə bir-birimizi rus dilində anlayırdıq. Əgər qısa müddətdə ortaq dil və əlifba məsələlərini həll etməsək, gələcəkdə ingilis dilində danışmağa məcbur olacağıq. Ona görə də Beynəlxalq Türk Akademiyasının və türk dövlətlərinin öncül universitetlərinin rəhbərliyi altında bu sahədə ciddi çalışmalar edilməli, qısa müddətdə səmərəli nəticələr ortaya qoyulmasına çalışmalıyıq. Ortaq əlifba məsələsi gerçəkləşərsə, Türk dünyası yaxın müddətdə bu əlifbaya keçid edərsə, çox böyük irəliləyiş, hətta sıçrayış əldə edə bilərik.

2020-ci və 2021-ci il Türk dünyasında önəmli bir tarix oldu. Azərbaycan ərazi bütövlüyünü bərpa etməklə, Zəngəzur dəhlizi adlı reallıq yaratmaqla, Türkiyə bölgədə və dünyada daha aktiv siyasət yürütməklə, Orta Asiya ölkələri öz aralarında və ümumilikdə türk birliyi çalışmalarında ciddi addımlar atmaqla ələ düşmüş fürsətləri dəyərləndirmiş oldular. Türk ölkələri ikili münasibətlərdə də mühüm addımlar atırlar. Azərbaycanla Türkiyənin arasında son onilliklərdə bütün sahələr üzrə görünməmiş dərəcədə sıx əlaqələrin qurulması, Azərbaycanın Qırğızıstana vaksin yardımı, Özbəkistanın Füzuli rayonunda məktəb tikintisi həyata keçirmək planları, Orta Asiya ölkələrinin öz aralarındakı sərhəd və digər mübahisəli məsələləri həll etmək cəhdləri, Qazaxıstanın KTMT-nin iclasında Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyərək Ermənistana "tərs şillə" vurması, Azərbaycanla Türkmənistan arasında Xəzər dənizindəki mübahisəli yataqlar probleminin həllini tapması, Orta Asiyanın qaz ixracının Azərbaycan vasitəsilə Avropaya daşınması ilə bağlı plan, Türkiyənin Orta Asiya ölkələri ilə mühüm fəaliyyətlər həyata keçirməsi, türk ölkələri ilə Macarıstan arasında əməkdaşlıq imkanlarının genişlənməsi, ən əsası TDT üzvlərinin Qarabağ məsələsində Azərbaycana verdikləri dəstək və s. bunun bariz nümunəsidir.

12 noyabrda əsası qoyulan Türk Dövlətləri Təşkilatı qarşısına qoyduğu hədəfləri reallaşdırdıqca qurumdaxili inteqrasiya imkanlarını genişləndirəcək. Çünki üzv ölkələrin öz aralarında münasibətlərini sıxlaşdırmalarına və birliklərini daha da möhkəmləndirməyə ciddi ehtiyac var. Bununla yanaşı TDT-nin fəaliyyəti müxtəlif ölkələr üçün də cəlbedici görünməkdədir. Bu sırada Pakistanın, Ukraynanın, Cənubi Koreyanın, Əfqanıstanın, Tacikistanın, əhalisinin əhəmiyyətli qismini türklərin təşkil etdiyi Rusiyanın, hətta İranın və İraqın da adını çəkə bilərik. TDT qarşıdakı illərdə adları qeyd olunan dövlətlərlə, o cümlədən BMT, İslam Əməkdaşlıq Təşkilatı, NATO, Avropa Birliyi, Şanxay Əməkdaşlıq Təşkilatı, Ərəb Dövlətləri Liqası və s. beynəlxalq təşkilatlarla ciddi işbirliyi qura bilər. Bu isə türkün dünyaya sülh və ədalət gətirəcəyi ilə bağlı söylənənlərin doğruluğuna işarədir. Tanrı Türk dünyasını və birliyimizi qorusun!

***Mübariz GÖYÜŞLÜ,***
***Azərbaycan Vətəndaş Hərəkatının icraçı direktoru, siyasi şərhçi***

Xalq qəzeti .- 2021.-19 noyabr.- S.3.